**“Təsdiq edirəm”**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində**

**Azərbaycan Dövlət Pedaqoji Kollecinin Direktoru**

**____________ Amalya Sezginə**

# ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbələrinin nizam-intizam QAYDALARI

## 1. Ümumi müddəalar

1. “Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində tələbənin nizam-intizam Qaydaları” (bundan sonra-“Qaydalar”) Pedaqoji Kollecdə qadağan olunan və ya tələbə adına, şərəf və ləyaqətinə uyğun olmayan hərəkətlər edən tələbələrə qarşı tətbiq ediləcək intizam tədbirlərini, onların tətbiq edilməsi prosedurunu müəyyən edən qaydalar məcmusudur.
2. Bu qaydalar Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununa Kollecin Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır.
3. Bu qaydalar Pedaqoji Kollecdə təhsil alan hər bir tələbəyə şamil olunur.
4. Bu qaydaların tətbiqi zamanı aşağıdakı prinsiplər əsas götürülür.

4.1. Bərabərlik prinsipi: intizam qaydalarını pozmuş tələbələr irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq intizam məsuliyyətinə cəlb olunurlar.

4.2. Ədalət prinsipi: intizam qaydalarını pozmuş tələbəyə tətbiq edilən intizam tənbehi ədalətli olmalıdır, yəni pozuntunun xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə uyğun olmalıdır.

4.3. Humanizm prinsipi: intizam qaydalarını pozmuş tələbəyə tətbiq edilən intizam tənbehi insan ləyaqətini alçatmaq məqsədi daşıya bilməz.

## 2. Ümumi tələblər

2.1 Kollecdə təhsil alan hər bir tələbə aşağıdakılara riayət etməlidir.

2.1.1 Kollecin Nizamnaməsinə direktorun əmr və sərəncamlarına, Pedaqoji Şuranın qərarlarına və digər qaydalara riayət etməlidir.

2.1.2 Kollecin əmlakını qorumalı, üzləşdiyi pozuntular haqqında kollecin məsul işçilərinə məlumat verməlidir.

2.1.3 Tələbə adına yaraşmayan və qadağan edilmiş hərəkətlərə yol verməməli, kollecdə səliqə-səhmanın yaradılmasına və qorunmasına dəstək verməli, dərs prosesinin normal gedişinə mane olan hərəkətlər etməməli, tələbə yoldaşlarına, kollec əməkdaşlarına qarşı diqqətli olmalı, hörmət etməlidir.

2.1.4 Kollecin nüfuzuna, mənəvi dəyərlərinə zidd hərəkətlər etməməli, Kollec haqqında həqiqətə uyğun olmayan, böhtan xarakterli məlumatlar yaymamalıdır;

2.1.5 Milli dəyərlərə hörmət etməli, onları qorumalıdır.

2.1.6 Kollecdə ümumi qəbul olunmuş geyim kodeksi qaydalarina uyğun olmayan xarici görkəmdə gəlməməlidir.

2.1.7. Tədris prosesini pozmamalı, üzürsüz səbəb olmadan dərslərə gecikməməli, dərs buraxmamalıdır. Təcrubə keçdiyi müəssələrin daxili qaydalarına əməl etməlidir.
2.1.8.Kollecdə yanğın təhlükəsizliyi qaydalarına və tibbi tələblərə zidd olan hərəkətlərə yol verməməlidir.
2.1.9. Dələduzluq, oğurluq, kompyuter və şəbəkə təhlükəsizliyi ilə bağlı haker fəaliyyətinə yol verməməlidir.

**3. İntizam tədbirləri**
3.1 Tələbə kollecdə nizam-intizamı pozduqda ona qarşı aşağıdakı intizam tədbirlərindən biri tətbiq edilə bilər.
3.1.1. Şifahi xəbərdarlıq
3.1.2.Yazılı xəbərdarlıq
3.1.1 Töhmət;
3.1.2 Şiddətli töhmət
3.1.3 Kollecdən xaric etmə ( bir semestr, iki semestr və ya daha uzun müddətə);
3.2 Tələbə təkrarən pozuntu törətdiyi halda onun barəsində intizam tədbirləri görülə bilər.

**4. Töhmət**
4.1 Töhmət tələbəyə hərəkət və davranışlarında yol verdiyi pozuntuların yazılı şəkildə bildirilməsidir. Töhmət aşağıdakı hallarda tətbiq edilir.
4.1.1 Başqalarına qarşı kobudluq, hörmətsizlik və davranış normalarına uyğun olmayan hərəkətlər etmək, başqalarını narahat edəcək şəkildə uca səslə danışmaq, mahnı oxumaq, musiqiyə qulaq asmaq, səs-küy salmaq, auditoriyalarda, ümumi istifadə yerlərində təmizliyinə riayət etməmək.
4.1.2 Kollec daxilində icazəsiz elanlar, afişa və plakatlar asmaq, eləcə də sosial şəbəkələrdə kollecə aid uyğun olmayan, kollecin nüfuzuna xələl gətirən məlumatı, şəkil, video və s.. paylaşmaq.
4.1.3 Kollec tərəfindən asılan hər növ elanı qopartmaq, cırmaq, dəyişdirmək, qaralamaq və ya korlamaq.
4.1.4 Hərəkətləri və davranışı ilə dərsin normal gedişini pozmaq, dərsdə mobil telefon və digər texniki vasitələrdən istifadə etmək.
4.1.5 Mobil telefon və digər texniki vasitələri nəzarətçiyə təhvil vermədən imtahana girmək.
4.1.6 Kollecin divarlarında və əmlakının üzərinə yazı yazmaq, işarələr qoymaq, şəkil çəkmək, onları hər hansı şəkildə korlamaq.
4.1.7 Müxtəlif tədbirlərin keçirilməsinə mane olmaq, tədbir proqramına xələl gətirəcək hərəkətlər etmək.
4.1.8 Kollecin avadanlığı, əmlakı və digər maddi-texniki bazasına ziyan vermək, qəsdən sındırmaq və s..Kollec daxilində siyasi və dini təbliğatla məşğul olmaq.
4.1.9 İntizam təhqiqatının aparılmasına hər hansı bir şəkildə mane olmaq və ya buna cəhd etmək.
4.1.10 Kollecdən aldığı sənədi (tələbə bileti) başqasının istifadəsi üçün şərait yaratmaq.
4.1.11 Təkbaşına və qrup şəklində müəllim və rəhbər işçilərin qəbul etdikləri qərarlara qarşı çıxmaq və bununla əlaqədar tələbələr arasında həmin şəxslərə qarşı təbliğat aparmaq və ya belə hərəkətlərə cəhd etmək.
4.1.12 Dil, irq, milli mənsubiyyət, din və məzhəb kimi əlamətlərə görə qruplaşmalar yaradaraq fəaliyyət göstərmək, ayrıseçkilik etmək.

4.1.13 Kollecdə əşyalara, qapı, pəncərə, divar və digər yerlərə ideoloji və ya siyasi xarakterli yazılar yazmaq, şəkil, emblem yapışdırmaq.
4.1.14 Kollec və ona aid qurumlarda eləcə də istehsalat təcrübəsi, kollecdən kənarda keçirilən tədbirlər zamanı hər hansı bir siyasi partiyanın lehinə və ya əleyhinə fəaliyyət göstərmək və bununla bağlı müxtəlif təbliğatlar aparmaq.
4.1.15 Təkbaşına və qrup halında kollec daxilində və xaricində kollecin nüfuzuna xələl gətirəcək hərəkətlər etmək.
4.1.16 Kollec və ona aid qurumlarda, səlahiyyətli şəxslərdən icazə almadan, müxtəlif tədbirlər təşkil etmək və ya belə tədbirlərdə iştirak etmək.
4.1.17 Kollec və ya onun hər hansı bir qurumunu təmsil etmək səlahiyyəti olmadığı halda özünün səlahiyyətli şəxs kimi göstərərək kollecin nüfuzuna xələl gətirən bəyanatlar vermək, iclas və ya tədbirlərdə iştirak etmək.
4.1.18 Kollec binaları və ərazisində qadağan olunmuş yerlərə (server otağı, qazanxana, yemekxananın mətbəx bölümü və s..) daxil olmaq.
4.1.19 Qanunsuz fəaliyyət göstərən təşkilatlara üzv olmaq və ya bu təşkilatların lehinə fəaliyyət göstərmək.
4.1.20 Kollecin həyətində xüsusi ayrılmış yerlərdən başqa qadağan olunmuş yerlərdə (kollecin binası, sanitar qovşağı, dəhlizlər, idman zalı, sinif otağı və s..) siqaret çəkmək.
4.1.21 İmtahanda köçürmək və ya köçürməyə şərait yaratmaq.
4.1.22 Tələbə yazdığı kurs işlərində, buraxılış işlərində plagiata yol verdiyi təqdirdə.
4.1.23 Özünü başqasının yerinə təqdim etməklə dərs prosesi, imtahan və tədbirlərdə iştirakı təmin etmək və ya buna kömək etmək.

**5. Şiddətli töhmət**

5.1 Şiddətli töhmət tələbəyə hərəkət və davranışlarında ciddi nöqsanın olduğunun təsbit edildiyinin və təkrar intizam pozuntusunun törədəcəyi təqdirdə daha ağır cəza nəzərdə tutulan müddəaların tədbiq ediləcəyənin bildirilməsidir. Şiddətli töhmət aşağıdakı hallarda tətbiq edilir.
5.1.1 Bu qaydalar 5.1-ci maddəsi ilə müəyyən olunmuş hallar təkrarən törədildikdə.
5.1.2 Kollec müəllimlərinə və əməkdaşlarına fiziki təzyiq, hədə-qorxu gəldikdə, eləcə də korrupsiya hallarına yol verildikdə.
5.1.3 Kollec daxilində spirtli içkilər içdikdə.

**6. Kollecdən xaric etmə (bir semestr, iki semestr və ya daha uzun müddətə)**

6.1 Kollecdən xaricetmə - tələbəyə kollecdən 1 semestr, 2 semestr və ya daha uzun müddətə xaric edilməsinin və bu müddət ərzində tələbəlik hüquqlarından məhrum edilməsinin səlahiyyətli şəxsin əmri əsasında yazılı şəkildə bildirilməsidir. Kollecdən 1 semestr, 2 semestr və ya daha uzun müddətə xaric etmə aşağıdakı hallarda tətbiq edilir.
6.1.1 Şiddətli töhmət almış tələbə tərəfindən təkrarən pozuntu törədildikdə.
6.1.2 Kollecin tələbə, müəllim və əməkdaşlarının şərəf və ləyaqətini, şəxsiyyətini ağır şəkildə təhqir etdikdə.
6.1.3 Bilərəkdən, planlı şəkildə kollecin nüfuzuna xələl gətirən tədbirlər keçirdikdə iclaslar, mitinqlər və nümayişlər təşkil etdikdə, təbliğatlar apardıqda.
6.1.4 Cinayət tərkibli hərəkətlər etdikdə.
6.1.5 Kollecin işçiləri və ya tələbələrinə qarşı fiziki güc tətbiq etdikdə.
6.1.6 Kollecə aid olan və ya Kollecə təqdim olunan hər hansı digər rəsmi sənəddə imzanı saxtalaşdırdıqda.

6.1.7 Kollec sənədlərində dəyişikliklər etdikdə başqalarını da buna təhrik etdikdə.
6.1.8 Kollecin informasiya sisteminə müdaxilə etdikdə, bu yolla məlumat əldə olunduqda, məlumatlarda dəyişikliklər etdikdə sistemin normal fəaliyyətinə xələl gətirdikdə başqalarını buna təhrik etdikdə və belə hərəkətlərə cəhd etdikdə.
6.1.9 Başqa tələbənin əvəzinə imtahan verildiyi halda.
6.1.10 Bilərəkdən başqasının onun əvəzinə imtahan verməsinə şərait yaratdıqda.
6.1.11 Kollecin əmlakına bilərəkdən ziyan vurduqda, onu talan etdikdə.

**7. İntizam tədbirlərinin tətbiqi qaydaları**
7.1 Nizam-intizam qaydalarının pozulması ilə bağlı intizam tənbehi tətbiq edilməzdən əvvəl tələbədən yazılı izahat alınmalıdır.
7.2 Tələbənin yazılı izahat verib-verməməsindən asılı olmayaraq intizam məsuliyyətinə səbəb ola biləcək pozuntu ilə bağlı maksimum 3 gün, xüsusi hallarda isə 5 gün müddətinə araşdırma aparılır. Ehtiyac olarsa araşdırma müddəti artırıla bilər. Araşdırma direktorun göstərişinə əsasən və bu məqsədlə yaradılan nizam-intizam komissiyası tərəfindən aparılır.
7.3 Kollecin bütün tələbələri və işçiləri araşdırma aparan şəxsə və ya komissiyaya lazım olan bütün məlumat və sənədləri təqdim etməlidirlər.
7.4 İntizam tədbiri hadisənin baş verməsinin aşkar olunduğu gündən 1(bir) ay müddətinə tətbiq edilə bilər.
7.5 Haqqında araşdırma aparılan tələbə kollec daxilində şöbəsini və ixtisasını dəyişə bilməz və başqa kollecə köçürülə bilməz.
7.6 Araşdırma tamamlandıqdan sonra komissiya uyğun hesabat hazırlayır və tələbəyə qarşı hansı bir intizam tədbirinin tətbiq edilməsi barədə şöbə müdirinə yazılı təkliflərini verir. Şöbə müdiri buna əsaslanaraq müvafiq təqdimatı direktora təqdim edir.
7.7 İntizam tədbiri yazılı şəkildə direktorun (sərəncamı, qərarı) ilə həyata keçirilir. Tələbə əmrlə (sərəncamla, qərarla) 3 gün müddətində tanış edilir.
7.8 Sərəncam və əmrlərdə tələbənin şərəf və ləyaqətini alçaldan ifadələrin işlədilməsi yol verilməzdir.

**8. İntizam tədbiri haqqında qərar qəbul etmə səlahiyyəti olan vəzifəli şəxslər**
8.1 Töhmət, şiddətli töhmət və 1 semestr, 2 semestr, və ya daha uzun müddətə kollecdən xaric etmə tədbirləri haqqında uyğun qərar aidiyyatı şöbə müdirinin, komissiyanın təqdimatı ilə direktor tərəfindən verilir.

**9. İntizam tədbirindən apellyasiya şikayətinin verilməsi qaydaları**
9.1 Tələbənin onunla bağlı qəbul olunmuş intizam tədbiri ilə bağlı şikayət vermək hüququ var. Bu zaman tələbə onunla bağlı verilən izahatlarla tanış olmaq, haqqında verilmiş qərarla tanış olmaq hüququna malikdir. İntizam tədbiri ilə bağlı rəsmi əmr haqqında tələbəyə məlumat veriləndən 3 iş günü müddətində tələbə apellyasiya şikayəti verə bilər.
9.2 Apellyasiya şikayəti birbaşa direktora ünvanlanır.
9.3 Apellyasiya şikayəti ilə bağlı direktor tərəfindən Apellyasiya Komissiyası yaradılır və 5 iş günü müddətində araşdırma aparılır. İlkin araşdırmada iştirak edən şəxslər Apellyasiya Komissiyasının üzvi ola bilməzlər.
9.4 Apellyasiya Komissiyası şikayəti araşdırır və intizam tədbiri ilə bağlı verilən qərarın qüvvədə saxlanması, ləğv edilməsi və ya ona dəyişikliklər edilməsi barədə tövsiyyələrini verir.

9.5 Apellyasiya Komissiyasının tövsiyyələrinə əsasən direktor son qərar verir və bu qərar qətidir.
9.6 Dərslərində və davranışlarında yaxşı göstəricilərə görə intizam tədbiri 6 aydan sonra vaxtından əvvəl götürülə bilər.

**10. İntizam tədbirinə xitam verilməsi**
10.1. İntizam tənbehi tədbirlərinin (töhmət və şiddətli töhmət) qüvvədə olma müddəti bir dərs ilidir. Bu müddət bitdikdən sonra heç bir əlavə əmr olmadan intizam tənbehi qüvvəsini itirmiş hesab olunur.
10.2. Kollecdən müddətli xaric etmə inzibati tənbehi xaricetmə müddəti başa çatdıqdan sonra ödənmiş hesab olunur;
10.3. İnzibati tədbirə dair qəbul edilən qərara vaxtından əvvəl xitam verilə bilər. İnzibati tədbirlə bağlı qərara tələbənin davranışlarında müsbət istiqamətdə dəyişikliyin baş verməsi, təhsildə və ya ictimai həyatda əhəmiyyətli uğur qazanması hallarıda, valideynlərin müraciəti, müxtəlif şöbələrdən (şöbələr, bölmələr və ya TGT) təsisatlardan daxil olmuş təqdimatlar nəzərə alınmaqla vaxtından əvvəl xitam verilə bilər.